## MÜSTƏQİL AUDİTORUN HESABATI

**" Ləzzət Qida Sənaye " MMC və onun törəmə müəssisələrinin təsisçilərinə**

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabatı.**

**rəy**

Biz, **" Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyətinin** ( (bundan sonra "Qrup") 31 dekabr 2024-cü il tarixinə Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatları, həmin tarixdə başa çatmış il üzrə konsolidasiya edilmiş Mənfəət və ya Zərər və Digər məcmu gəlir Haqqında hesabat, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda, eləcə də, Mühasibat uçot siyasəti haqqında əsas məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarına qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini, habelə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**rəy üçün əsas**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Peşəkar Mühasiblər.ı Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları (Beynəlxalq müstəqil standartlar daxil olmaqla) Şurasının (İESBA) prinsipinə uyğun olaraq Qrupdan ayrıyıq və digər etika öhdəliklərimizi İESBA Kodeksi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etdiyimizi hesab edirik.

**Digər Məlumatlar**

Digər məlumatlara görə direktorlar və rəhbərlik məsuliyyət daşıyır. Digər məlumatlar bu audit hesabatının tərtib edildiyi tarixdən əvvəl aldığımız direktorların hesabatında yer alır. Konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı fikrimiz, direktorların hesabatında göstərilən maliyyə məlumatları istisna olmaqla, digər məlumatlara şamil edilmir və buna görə də ona əsaslanan heç bir zəmanət və ya rəy bildirmirik. Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi ilə əlaqədar olaraq, bizim vəzifəmiz yuxarıda göstərilən digər məlumatlarla tanış olmaq və eyni zamanda digər məlumatların əsaslı şəkildə konsolidasiya edilmiş maliyyə hesabatlarına, Audit zamanı əldə etdiyimiz biliklərə zidd olub-olmaması və ya başqa şəkildə əhəmiyyətli dərəcədə təhrif edilməməsi məsələsinə baxmaqdır. Bu audit rəyinin tərtib edildiyi tarixdən əvvəl əldə etdiyimiz digər məlumatlarla gördüyümüz işlərə əsasən bu digər məlumatların əhəmiyyətli dərəcədə təhrif olunduğu qənaətinə gəlsək, bu faktı bildirməliyik. Bununla bağlı bizə məlumat verəcək heç nəyimiz yoxdur.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Qrupun idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarınım hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Qrupun maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsıdir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlan esasıda aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- ✓ Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq, əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- ✓ Qrupun daxili nəzarətinin effektivliyinə dair rəy bildirmək məqsədi ilə deyil, şəraitə uyğun olan audit prosedurlarını tərtib etmək üçün auditə aid daxili nəzarət haqqında rəy əldə edirik.

- ✓ İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların uyğunluğunu təhlil edirik.

- ✓ Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin uyğunluğuna və Qrupun davamlılıq prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Əgər əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəlsək, biz auditor hesabatımızda diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara yönəltməli və ya belə açıqlamalar qeyri-adekvat olarsa, rəyimizi dəyişdirməliyik. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Qrupun işində davamlılıq prinsipini poza bilər.

- ✓ Konsolidasiya edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib-etdirmədiyini təhlil edirik.

- ✓ Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirmək üçün Qrup daxilindəki qurumlar və işgüzar fəaliyyətlər haqqında maliyyə məlumatları ilə bağlı lazımı müvafiq audit dəlili əldə edirik. Biz qrupun audit yoxlamasının istiqamətləndirilməsi, nəzarəti və icrası üzrə məsuliyyət daşıyırıq. Biz audit rəyimizə görə tam şəkildə cavabdehik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq.

AZƏRBAYCAN RESPUBLİKASI "ALMİR AUDİT" MMC "ALMİR AUDİT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ NAXÇIVAN ŞƏHƏRİ NAXÇIVAN MUXTAR RESPUBLİKASI

**26 avqust 2025-ci il**

**"ALMİR AUDİT " MMC-nin Direktoru,**
**Auditor:** **Seyidov Şəmsi İsmayıl oğlu**

**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**tərəfindən 30.01.2025-ci il tarixdə verilmiş**

İCAZƏ AT/331

**"Ləzzət Qida Sənaye" MMC və onun törəmə müəssisələrinin Maliyyə Vəziyyəti Haqqında Konsolidə Edilmiş Hesabatı.**
**31 Dekabr 2024-cü il tarixində bitmiş il üzrə.**

**Ölçü vahidi: manat**

| B/M | Bölmə/Maddələrin adı | Qyd | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **Aktivlər** | | | |
| 1 | **Uzunmüddtli aktivlər** | | | |
| 11 | Torpaq,ti kili, avadanlıqlar | H9. | 11 067 161 | 8 736 808 |
| 10 | Qeyri-maddi aktivlər | H10. | 48 520 | 49 889 |
| 12 | İnvestisiya mülkiyyəti | - | - | |
| 13 | Bioloji aktivlər | H11. | 223 769 | 144 715 |
| 14 | Mineral resurslar | - | - | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | H1. | - | - |
| 16 | Təxirə salınmış vergi aktivləri | H12. | 44 701 | - |
| 17 | Uzunmüddətli debitor borcları | - | - | |
| 11 | Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | H9. | 193 212 | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | - | - | |
| 19 | Sair uzunmüddətli aktivlər | H11. | 3 911 413 | 988 269 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **15 488 775** | **9 919 681** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | H2. | 6 406 672 | 9 752 659 |
| 21 | Qısamüddətli debitor borcları | H6. | 10 586 672 | 12 397 541 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | H12. | 3 344 185 | 1 213 593 |
| 24 | Sair qısa müddətli aktivlər | H12. | 672 576 | 62 856 |
| 22 | Pul vəsaitləri və onun ekvialentləri | H13. | 2 975 827 | 4 888 466 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **23 985 932** | **28 315 115** |
| | **Cəmi aktivlər** | | **39 474 708** | **38 234 797** |
| | **Kapital və öhdəliklər** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | H4. | 5 000 000 | 5 000 000 |
| 31 | Emissiya gəliri | - | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | - | - | |
| 33 | Kapital ehtiyatları | H17. | 2 276 879 | 3 509 279 |
| 33 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | H3. | 6 534 489 | 4 314 128 |
| | **Cəmi capital** | | **13 811 368** | **12 823 408** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz yaradan öhdəliklər | H14. | 12 017 371 | 12 683 820 |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | - | - | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | - | - | |
| 43 | Uzunmüddətli kreditor borcları | - | - | - |
| 44 | Sair uzunmüddətli öhdəliklər | - | 0 | - |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | **12 017 371** | **12 683 820** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | - | - | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | - | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | H16. | 339 526 | 123 076 |
| 53 | Qısamüddətli kreditor borcları | H5. | 7 999 544 | 7 230 043 |
| 54 | Sair qısamüddətli öhdəliklər | H17. | 5 306 899 | 5 374 449 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **13 645 968** | **12 727 569** |
| | **Cəmi öhdəliklər** | | **25 663 340** | **25 411 389** |
| | **Cəmi capital və öhdəliklər** | | **39 474 708** | **38 234 797** |

**Auditor rəyi 5,6 və 7-ci səhifələrdə öz əksini tapmışdır.**

Sahifa 8 **Konsolidə Edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabat** rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

**Direktor:** **Baş Mühasib:**

**Teymur Rzayev :**__________ **Elvin Əliyev :**__________

**"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti** **26 avqust 2025- ci il**

**"Ləzzət Qida Sənaye " MMC və onun törəmə müəssisələrinin** ***Konsolidə Edilmiş Mənfəət və Zərər və Digər məcmu gəlir Haqqında Hesabatı.***

**31 Dekabr 2024-cü il tarixdə bitmiş il üzrə.**

**Ölçü vahidi: manat**

| Göstəricilərin adı | Qyd | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|---|
| 2 | 3 | 4 | 5 |
| Əsas əməliyyat gəliri | H18. | 65 338 410 | 71 739 008 |
| Satışın maya dəyəri | H19. | (28 470 025) | (54 068 609) |
| **Ümumi mənfəət** | | **36 868 385** | **17 670 399** |
| Digər əməliyyat galiri (zərəri) | H18. | 49 669 | 28 814 |
| Kommersiya xərcləri | H19. | (1 364 638) | (2 316 417) |
| Inzibati xərclər | H19. | (32 845 405) | (11 463 811) |
| sair əməliyyat xərcləri | - | 0 | (527 144) |
| Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | - | 0 | 0 |
| Əməliyyat mənfəəti (zərəri) | | 0 | 0 |
| Maliyyə mənfəəti (zərəri) | - | 0 | (506 749) |
| Fövqəladə mənfəət (zərər) | - | 0 | 0 |
| Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | 0 | 0 |
| Keçmiş illərin çıxılan zərəri | | | (106 540) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | H21. | **2 708 011** | **2 778 551** |
| **Vergi Məcəlləsinin 106.1.17 maddəsinə əsasən vergidən azad olan hissə** | H20. | (1 228 792) | (1 444 135) |
| **Mənfəət vergisi** | H20. | (487 650) | (459 526) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | H21. | **2 220 361** | **2 319 025** |
| O cümlədən | | | |
| qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | 0 | |
| əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | H21. | **2 220 361** | **2 319 025** |
| Digər məcmu gəlir | | | |
| Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| O cümlədən | | | |
| qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

**Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir**

Auditor rəyi 5,6 və 7-ci səhifələrdə öz əksini tapmışdır

Səhifə 9-da olan *Konsolidə Edilmiş Mənfəət və Zərər və Digər məcmu gəlir Haqqında Hesabat* rəhbər tarafından təsdiq edilmiş və onun adından imzalanımışdır.

**Direktor:**
**Teymur Rzayev :____________________**
**"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Baş Mühasib:**
**Elvin Əliyev :__________________**
**26 avqust 2025- ci il**

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhəri
Azerbaijan Republic Nakhchivan Autonomous Republic Nakhchivan city
"LƏZZƏT QİDA SƏNAYE" MMC
LƏZZƏT
"LEZZET FOOD INDUSTRY" LLC

"Ləzzət Qida Sənaye " MMC və onun törəmə müəssisələrinin *Konsolidə Edilmiş Kapitalda Dəyişikliklər Haqqımda Hesabatı.*

**31 dekabr 2024-ci il tarixdə bitmiş il üzrə.** Azərbaycan Manatı ilə

| | | | | Kapital ehtiyatları | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizam-namə üzrə ehtiyat | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
| 1 | 2 | 3 | 4 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | H4. | 5 000 000.00 | | | | | | 3 509 279.00 | 4 314 129.00 | 12 823 408.00 |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | H4. | 5 000 000.00 | | | | | | 3 509 279.00 | 4 314 129.00 | 12 823 408.00 |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | - |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | - |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | - |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | - |
| Sair məcmu gəlir | | | | | | | | | | - |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | 5 000 000.00 | | | | | | 3 509 279.00 | 4 314 129.00 | 12 823 408.00 |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | 5 000 000.00 | | | | | | 3 509 279.00 | 4 314 129.00 | 12 823 408.00 |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | H3. | | | | | | | (1 232 399.99) | (533 966.95) | (1 766 366.94) |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | H4. | 5 000 000.00 | | | | | | 2 276 879.01 | 3 780 162.05 | 11 057 041.06 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | H18. | | | | | | | | 3 195 660.94 | 3 195 660.94 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | (441 334.00) | (441 334.00) |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | - |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | - |
| Sair məcmu gəlir | | | | | | | | | | - |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | 5 000 000.00 | | | | | | 2 276 879.01 | 6 534 488.99 | 13 811 368.00 |
| **Hesabat dövrünün sonuna qalıq** | | 5 000 000.00 | | | | | | 2 276 879.01 | 6 534 488.99 | 13 811 368.00 |

Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir.

**Auditor rəyi 5,6 və 7-ci səhifələrdə öz əksini tapmışdır.**

**Direktor:**

**Teymur Rzayev :**____________

**"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Baş Mühasib:**

**Elvin Əliyev :**____________

**26 avqust 2025- ci il**

**" Ləzzət Qida Sənaye" MMC-nin *Konsolidə Edilmiş Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabatı.***
**31 dekabr 2024-cü il tarixdə başa çatmış il üzrə.**

**Ölçü vahidi: manat**

| | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|
| 1 | 2 | 3 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 2 708 011 | 2 778 551 |
| **Aşağıdakı maddələr üzrə düzəlişlər:** | | |
| mənfəət vergisi üzrə xərclər | (30 544) | - |
| Amortizasiya xərcləri | 1 292 526 | 1 137 804 |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | **3 969 993** | **3 916 355** |
| Ehtiyatların azalması (artması) | 3 345 986 | (1 211 876) |
| əməliyyat debitor borclarının azalması (artması) | (4 158 222) | (8 908 652) |
| sair qısamüddətli aktivlərin azalması (artması) | (2 740 312) | 1 394 914 |
| vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | (32 873) | (75 631) |
| əməliyyat kreditor borclarının artması (azalması) | 6 436 898 | 1 037 215 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | (3 712 721) | 5 271 674 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | (174 369) | (459 526) |
| sair uzunmüddətli aktivlərin azalması (artması) | (3 074 097) | (2 360 593) |
| Sair qısamüddətli kreditor borcların artması (azalması) | (55 382) | 0 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(195 098)** | **(1 396 120)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (3 645 159) | (3 609 802) |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | (193 212) | (4 464) |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | (980 520) | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(4 818 891)** | **(3 614 266)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Nizamnamə kapitalının artırılması | 5 000 200 | 1 270 020 |
| Kredit alışı | 2 000 000 | 9 741 753 |
| Kredit ödənişi | (2 666 449) | (1 702 950) |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | (1 232 401) | |
| Kapitalın istifadəsi | | (235 285) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **3 101 350** | **9 073 538** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(1 912 639)** | **4 063 152** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **4 888 466** | **825 313.63** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **(1 912 639)** | **4 063 152.45** |
| xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **2 975 827** | **4 888 466.08** |

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

**Auditor rəyi 5,6 ya 7-ci səhifələrlə öz əksini tapımadır.**

**Direktor:** **Baş Mühasib:**

**Teymur Rzayev :____________** **Elvin Əliyev :____________**

**"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti** **26 avqust 2025- ci il**

**"Ləzzət Qida Sənaye " MMC və onun törəmə müəssisələrinin Konsolidasiya edilmiş Maliyyə Hesabatlarına dair izahlı qeydlər.**

**31 Dekabr 2024-cü il tarixdə bitən il üzrə**

**1. Hüquqi vəziyyət və biznes fəaliyyəti**

**1.1 " Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyəti 24.09.2004-ci il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 02000338871 saylı şəhadətnamə (VÖEN) verilmişdir.**

"Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

""Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyətinin əsas fəaliyyəti müxtəlif ərzaq və qeyri-ərzaq məhsullarının istehsalını və satışının həyata keçirilməsi ilə məşğul olmaqdadır.

1.2." "Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnamə kapitalı 5 000 000 manat təsdiq edilmişdir. Naxçıvan şəhər vergilər idarəsi tərəfindən verilmiş 18.02.2025-cu il tarixli 3212241/23125/2025 saylı hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir:

**Təsisçilər:**

**Rzayev Teymur Yaqub oğlu-25%, Novruzov Namiq Yaqub oğlu-25%, Yaycılı İshak Muharrem(Türkiyə)-50%**

1.3."Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi ünvanı aşağıdakı kimidir: AZ7000, Naxçıvan şəhəri,N.Tusi ,ev 2/2.

1.4. İdarəetmə və nəzarət Cəmiyyətin Direktoru Rzayev Teymur Yaqub oğlu tərəfindən həyata keçirilir.

1.5. **"Ləzzət Qida Sənaye " Məhdud Məsuliyyətli Cəmiyyətinin** Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialında və Kapital Bank ASC Naxçıvan filialında hesabları mövcuddur.

**2.Törəmə müəssisələr:**

**2.1 "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyəti** İlkin Nizamnamə kapitalı **600 100.00** manat təsdiq edilmişdir. Dövlət vergi xidməti tərəfindən verilmiş 30.05.2024 tarixli 2427020034959000 saylı nömrə ilə hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir. 30.05.2024-cü il tarixə təsisçi **"Ləzzət Qida Sənaye " MMC - 100%.**

2.1.1 **Ləzzət Broyler " Məhdud Məsuliyyətli Cəmiyyəti** 17.11 2011-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 0200626721 saylı şəhadətnamə (VÖEN) verilmişdir.

2.1.2 **" Ləzzət Broyler " Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

2.1.3 **" Ləzzət Broyler " Məhdud Məsuliyyətli Cəmiyyətinin** əsas fəaliyyəti **quş əti məhsullarının istehsalı və topdan satışını** həyata keçirməkdən ibarətdir.

2.1.4 " **Ləzzət Broyler " Məhdud Məsuliyyətli Cəmiyyətinin aşağıdakı bankları mövcutdur.**

- Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialı;
- Kapital Bank ASC Naxçıvan filialı;

**2.2 "LG Bakı" Məhdud Məsuliyyətli Cəmiyyəti** İlkin Nizamnamə kapitalı **5 000 400.00** manat təsdiq edilmişdir. Dövlət vergi xidməti tərəfindən verilmiş 17.02.2025 tarixli 3212241/23083/2025 saylı nömrə ilə hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir. 17.02.2025-cü il tarixə təsisçi **"Ləzzət Qida Sənaye " MMC - 100%.**

2.2.1 **"LG Bakı " Məhdud Məsuliyyətli Cəmiyyəti** 19.12 2011-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 0200631761 saylı şəhadətnamə (VÖEN) verilmişdir.

2.2.2 **" LG Bakı " Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

2.2.3 **" LG Bakı " Məhdud Məsuliyyətli Cəmiyyətinin** əsas fəaliyyəti **ərzaq və qeyri ərzaq məhsullarının topdan satışını** həyata keçirməkdən ibarətdir.

2.2.4 **" LG Bakı " Məhdud Məsuliyyətli Cəmiyyətinin aşağıdakı bankları mövcutdur.**

- Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialı;
- Kapital Bank ASC Naxçıvan filialı;

**2.3 "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti** İlkin Nizamnamə kapitalı **1 260 200.00** manat təsdiq edilmişdir. Dövlət vergi xidməti tərəfindən verilmiş 18.08.2024 tarixli 2427020055255400 saylı nömrə ilə hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir. 16.08.2024-cü il tarixə təsisçi **"Ləzzət Qida Sənaye " MMC - 100%.**

2.3.1 **" Ləzzət Biskvit və Şokolad Fabriki " Məhdud Məsuliyyətli Cəmiyyəti** 27.01 2010-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 0200534801 saylı şəhadətnamə (VÖEN) verilmişdir.

2.3.2 **" Ləzzət Biskvit və Şokolad Fabriki " Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

2.3.3 **"Ləzzət Biskvit və Şokolad Fabriki " Məhdud Məsuliyyətli Cəmiyyətinin** əsas fəaliyyəti **vafli və peçeniyə məhsullarının istehsalı və topdan satışını** həyata keçirməkdən ibarətdir.

2.3.4 **" Ləzzət Biskvit və Şokolad Fabriki " Məhdud Məsuliyyətli Cəmiyyətinin aşağıdakı bankları mövcutdur.**

- Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialı;
- Kapital Bank ASC Naxçıvan filialı;

**2.4 "LG Konserv" Məhdud Məsuliyyətli Cəmiyyəti** İlkin Nizamnamə kapitalı **850 000.00** manat təsdiq edilmişdir. Dövlət vergi xidməti tərəfindən verilmiş 07.06.2024 tarixli 2427020036946600 saylı nömrə ilə hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir. 07.06.2024-cü il tarixə təsisçi **"Ləzzət Qida Sənaye " MMC - 100%.**

2.4.1 " **LG Konserv " Məhdud Məsuliyyətli Cəmiyyəti** 14.02 2006-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 0200219441 saylı şəhadətnamə (VÖEN) verilmişdir.

2.4.2 " **LG Konserv " Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

2.4.3 " **LG Konserv " Məhdud Məsuliyyətli Cəmiyyətinin** əsas fəaliyyəti **müxtəlif çeşidlərdə meyvə şirələrinin istehsalı və topdan satışını** həyata keçirməkdən ibarətdir.

2.4.4 " **LG Konserv " Məhdud Məsuliyyətli Cəmiyyətinin aşağıdakı bankları mövcutdur.**

- Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialı;
- Kapital Bank ASC Naxçıvan filialı;

**2.5 "LG Retail" Məhdud Məsuliyyətli Cəmiyyəti** İlkin Nizamnamə kapitalı **270 020.00** manat təsdiq edilmişdir. Dövlət vergi xidməti tərəfindən verilmiş 07.08.2023 tarixli 2327020029396300 saylı nömrə ilə hüquqi şəxsin Dövlət reyestrindən çıxarışa əsasən nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi təsdiq edilmişdir. 07.08.2023-cü il tarixə təsisçi **"Ləzzət Qida Sənaye " MMC - 100%.**

2.5.1 " **LG Retail " Məhdud Məsuliyyətli Cəmiyyəti** 13.01 2023-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Dövlət Vergi Xidmətində əlavə dəyər vergisinin ödəyicisi kimi Dövlət Qeydiyyatına alınmış və hüquqi şəxsə 0201379801 saylı şəhadətnamə (VÖEN) verilmişdir.

2.5.2 " **LG Retail " Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

2.5.3 " **LG Retail " Məhdud Məsuliyyətli Cəmiyyətinin** əsas fəaliyyəti **ərzaq və qeyri-ərzaq məhsullarının pərakəndə satışını** həyata keçirməkdən ibarətdir.

2.5.4 " **LG Retail " Məhdud Məsuliyyətli Cəmiyyətinin aşağıdakı bankları mövcutdur.**

- Azərbaycan Beynəlxalq Bankı ASC Naxçıvan filialı;
- Kapital Bank ASC Naxçıvan filialı;

**3. Mühüm uçot siyasətlərinin xülasəsi**

**Hazırlanmanın əsasları:**

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır, maliyyə hesabatları yeni Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

**Uyğunluğun təsdiqi**

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən təsdiq edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (BMHS) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi (BMSŞH) tərəfindən təqdim edilmiş təsvir qaydalarına müvafiq qaydada tərtib edilmişdir.

**a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri**

Cəmiyyətin mühasibat uçotu işləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun və Beynəlxalq Mühasibat Uçotu Standartlarının tələblərinə uyğun olaraq qurulmuş, mövcud əməliyyatlara mühasibat uçotunun hesablar planı düzgün tətbiq edilərək işlənilmiş, mühasibat uçotu elektron formada aparılmışdır. Bunların əsasında hesabat ilinin hesabatları və hesabatın əlavələri tələb olunan səviyyədə tərtib edilərək Vergi və Maliyyə orqanlarına təqdim olunmuşdur.

Cəmiyyətin Maliyyə hesabatları Azərbaycan Respublikasının müvafiq dövlət qurumları tərəfindən müəyyən edilərək təsdiq olunmuş xüsusi formalarda: "Cəmiyyətin Balansı", Mənfəət və zərər hesabat, Pul vəsaitlərinin hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat, digər məlumat, statistik xarakterli sənədlər formalarında və üç nüsxədə isə MHBS-nın tələblərinə uyğunlaşdırılaraq hazırlanmışdır.

**Qiymətləndirmələr**

Cəmiyyətin uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesablarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətlədirmələri həyata keçirmişdir.

**Əməliyyat gəliri**

Rəhbərlik belə hesab edir ki, gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir. Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəlik qəbul edilərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

**Ehtimal və fərziyyələr**

Növbəti maliyyə ili çərçivəsində, balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli dəyişikliyə gətirib çıxara biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

**Torpaq, tikili və adanlıqlar**

Torpaq tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə Sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

**Şübhəli borclar üzrə ehtiyatlar**

Şübhəli borclar üzrə ehtiyatlar debitor borclarını onların geri qaytarılmaması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməməsindən əmin olmaq üçün bir sıra amillərə əsaslanaraq müəyyən edilir. Ümüdsüz borclar üzrə ehtiyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borclarının ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin maliyyə vəziyyətinin kredit cəhətdən qiymətləndirilməsi daxildir. Həmçinin, şirkət müştərinin özünün öhdəliklərini ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşahidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyatlar yaradılır.

**b) Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyəri və mümkün xalis satış dəyərindən daha kiçik olan dəyərlə AVCO metodundan istifadə etməklə uçota alınır. Ehtiyyatların ilkin dəyərinə onların alınması, emal xərcləri və ehtiyatların mövcud yerə və vəziyyətə gətirilməsi üçün çəkilən digər xərclər daxildir. Xalis satış dəyəri nəzərdə tutulan satış qiymətindən işin tamamlanmasınaehtimal edilən xərcləri və satışı həyata keçirmək üçün zəruri xərcləri çıxmaqla müəyyən olunur.

**c) Torpaq, tikili və avadanlıqlar**

**i. İlkin tanınma və qiymətləndirmə**

Əmlak və avadanlıqlar obyektləri ilkin dəyərlə toplanmış amortizasiya və hər hansı qiymətdəndüşmə zərərləri çıxılmaqla uçota alınır.

Əgər əmək və avadanlıq əhəmiyyətli hissələrinin müxtəlif faydalı istifadə müddətləri olarsa, onlar əmlak və avadanlıqlarının fərqli obyektləri kimi uçota alınır.

Əmlak və avadanlıqların silinməsindən yaranan hər hansı gəlir və zərərlər silinmədən yaranan gəlirlərin onun qalıq dəyəri ilə müqayisəsi ilə müəyyən edilir və mənfəət və ya zərərdə digər gəlir/zərərdə xalis olaraq tanınır.

**ii. Sonrakı xərclər**

Əmlak, tikili və avadanqlıqların hissələrinin dəyişdirilməsi xərci əgər həmin hissənin dəyərini etibarlı şəkildə ölçmək mümkündürsə və gələcək iqtisadi səmərənin əldə Cəmiyyətə daxil olması ehtimal edilərsə ilkin dəyərlə uçota alınır.

**iii. Amortizasiya**

Əmlak, tikili və avadanlıqlar onlar qurulduqdan və istifadəyə hazır olduqdan sonra və ya öz tikdiyi əmlak, tikili və avadanlıqlar üçün isə əmlakın tikintisi tamamlanıb və istifadəyə hazır olduqdan sonra amortizasiya olunur. Amortizasiya ilkin dəyər çıxılın sonra qalıq dəyər azalan qalıq dəyəri əsasında hesablanır.

Əmlak, tikili və avadanlıqların cari və müqayisə edilən dövr üzrə ehtimal edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

- Binalar, tikililər və qurğular - 7%-ə dək
- Maşın və avandalıqlar - 25%-ə dək
- Nəqliyyat vasitələri - 25%-ə dək
- Ağaclar və digər bitkilər-20%-ə dək

Digər - 20%-ə dək

Amortizasiya metodları, faydalı istifadə müddətləri və son qalıq dəyəri hər bir hesabat dövründə nəzərdən keçirilir və əgər lazım gələrsə müvafiq düzəlişlər edilir.

**İnvestisiya mülkiyyətində yenidən təsnifləşdirmə**

Mülkiyyətdən investisiya mülkiyyətinə dəyişdikdə, əmlak ədalətli dəyərlə yenidən qiymətləndirilir və müvafiq olaraq yenidən təsnif edilir. Bu yenidən ölçülmədən yaranan hər hansı gəlir əvvəllər tanınmış qiymətdəndüşmə zərərləri çıxılmaqla digər məcmu gəlirlərdə tanınmış və yenidənqiymətləndirmə ehtiyatında tanınmış ehtiyatlar çıxılmaqla mənfəət və zərərdə tanınır. Hər hansı zərər mənfəət və ya zərərdə tanınır. Lakin, həmin əmlak üçün yenidən qiymətləndirmə ehtiyatında tanındığı qədər digər məcmu gəlirlərdə tanınır və kapitalda yenidənqiymətləndirmə ehtiyatını azaldır.

**d) Aktivlərin qiymətdən düşməsi**

Əgər hadisə və şəraitdəki dəyişikliklər göstərərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir,o zaman qiymətdən düşməsinin, olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa o zaman Mənfəət və Zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub-olmamasını müəyyən etmək üçün qiymətləndirilir. Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur, Mənfəət və Zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

**f) Vergitutma**

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergitutulan mənfəət Mənfəət və Zərər haqqında hesabat göstərilən uçot mənfəətindən fərqlənir, çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxarılacaq gəlir və ya xərc maddələrini, həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergitutulan mənfəətin hesablanması üçün istifadə edilən vergi bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergitutulan mənfəətin hesablanması üçün istifadə edilmişdir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergitutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxarılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyyəsində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergi tutulan mənfəətin və uçot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət etdiyindən maliyyə hesabatlarında müvəqqəti fərqlər yaranmır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq Cəmiyyətin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

**g) Maliyyə icarəsi**

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə,həmdə keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır.

İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda, maliyyə icarəsi kimi təsnifləşdirilmişdir.

✓İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir,

✓İcarəçinin, aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür,

✓İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir.

✓İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri, icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir, və

✓İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki,o xüsusi modifikasiya edilmədən yalnız

icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Cəmiyyət icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amortizasiyası siyasəti ilə eynidir.

Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda əks olunur.

**h) Gəlirin tanınması**

Məhsulların satışından gəlir aşağıdakı şərtlər yerinə yetirilərsə tanına bilər:

I. Müəsisə məhsulların mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risk və mükafatları alıcıya ötürmüşdür,

II. Müəsisə mülkiyyət hüququ ilə bağlı idarəetmədə artıq iştirak etmir və satılmış mallara faktiki nəzarəti saxlamır;

III. Gəlir məbləği düzgün qiymətləndirilə bilinir,

IV. Müəsisəyə əməliyyatla bağlı iqtisadi səmərənin daxil olacağı ehtimal olunur, və

